# Sadiq dostları necə tapmalı?

**Təlimat:** Bu tapşırığı sakit şəraitdə et. Ayələri oxuyanda özünü hadisələrin iştirakçısı kimi təsəvvür et. Hadisələri gözünün qabağında canlandır. Səsləri eşitməyə və baş qəhrəmanların keçirdiyi hissləri duymağa çalış.

**Baş qəhrəmanlar:** Yonatan, Davud və Şaul

**Qısa icmal:** Davud Qolyatı öldürdükdən sonra Yonatan Davudun ən yaxşı dostu oldu.

❶ ***BU EPİZODU ARAŞDIR. 1 ŞAMUEL 17:57—18:11; 19:1; 20:1—17, 41, 42 AYƏLƏRİNİ OXU.***

Səncə, Şaulun xarici görünüşü necə idi? (Kömək üçün: 1 Şamuel 10:20—23 ayələrinə bax.) ____________

Davud Yonatanla görüşəndə, ola bilsin ki, o hələ yeniyetmə oğlan idi. Sən onun xarici görünüşünü necə təsəvvür edirsən? (Kömək üçün: 1 Şamuel 16:12, 13 ayələrinə bax.) ____________

«Birinci Şamuel» kitabının 20-ci fəslinin axırında Davudla Yonatanın son görüşləri barədə oxuyarkən onların səsindən hansı hissləri keçirdikləri hiss olunur? ____________

❷ ***DAHA DƏRİNDƏN ARAŞDIR.***

Müqəddəs Kitabda yazılır ki: «Davud Şaulla danışığını qurtaran kimi Yonatanın qəlbi Davudun qəlbinə bağlandı və Yonatan onu öz canı kimi sevdi» və ya başqa tərcüməyə əsasən, «Davudla Yonatan yaxın dost oldular» (1 Şamuel 18:1, «Contemporary English Version»). Səncə, Yonatanı cəlb edən Davudun hansı xüsusiyyətləri idi? (Kömək üçün: 1 Şamuel 17:45, 46 ayələrinə bax.) ____________

Yonatan Davuddan təxminən 30 yaş böyük idi. Aralarında bu qədər yaş fərqinin olmasına baxmayaraq, səncə, onlar nəyin sayəsində «yaxın dost» olmuşdular? ____________

Bu təsirli hadisədən göründüyü kimi, əsil dostluğun səciyyəvi xüsusiyyətləri hansılardır? (Kömək üçün: Süleymanın məsəlləri 17:17; 18:24 ayələrinə bax.)

Nəyə görə Yonatan Davuda sədaqətli olmağı atasına sədaqətdən üstün tutdu?

### 3 ÖYRƏNDİKLƏRİNİ TƏTBİQ ET. AŞAĞIDAKILAR HAQQINDA ÖYRƏNDİKLƏRİNİ YAZ:

Dostluq.

Sadiqlik.

Özündən böyüklərlə dostluq.

Yaxşı dostları necə qazana bilərsən?

### 4 BU ƏHVALATDA SƏNİN ÜÇÜN ƏN ÇOX ƏHƏMİYYƏT KƏSB EDƏN NƏDİR VƏ NƏ ÜÇÜN?



www.jw.org © 2011 Watch Tower Bible and Tract Society of Pennsylvania